# Yusif Səmədoğlunun "Qətl günü" romanında repressiya gerçəklikləri

**Şəbnəm Teymurova**
*ADU-nun dissertantı*
**E-mail:** webi81@gmail.com

**Rəyçilər:** filol.ü.f.d., dos. F.N. Abdurəhmanova,
filol.üf.d., dos. N.Mustafayeva

**Açar sözlər:** "Qətl günü", 30-cu illər, repressiya, reallıq, Salahov
**Ключевые слова:** «День убийства», 30-е года, репрессия, реальность, Салахов
**Key word:** The Day of Judgment, repression, reality, Salahov

"Qətl günü" romanında yazıçı sənədlilikdən uzaq duraraq ümumiləşdirməyə, rəmzlərə daha çox diqqət yetirmişdir. Bu yanaşmanı repressiya reallıqlarını təsvir etmək üçün yeni bir yol kimi dəyərləndirmək olar. Ona görə ki, əgər yazıçı burada hər hansı bir repressiya olunmuş yazıçı, şair, yaxud alim, tənqidçinin həyatını təsvir etmiş olsaydı, onun məzmununu xeyli dərəcədə kiçiltmiş olacaqdı. Yusif Səmədoğlu isə ənənəvi yolla getməyərək bir neçə zaman və məkan götürür. Daha doğrusu, roman uzaq keçmiş, romanın yazılmasından əlli il əvvəl baş vermiş 30-cu illər və romanın yazıldığı dövrü əhatə edir. Lakin zaman və məkan etibarilə müxtəlif dövrləri və məkanı əhatə edən romanda hadisələr ustalıqla bir-birinə bağlanır və bu bağlılıq romanda bir tamlıq təsiri bağışlaylr. Bu müəllifə imkan verir ki, problemə tarixi, fəlsəfi kontekstdə yanaşa bilsin. Bunun üçün yazıçı hər üç zaman və məkan daxilində baş verən hadisələr bir-birilə üzvi surətdə bağlaya bilmişdir.

Romanın mərkəzi süjet xəttində əbədi Xeyir-Şər mübarizəsi qoyulub. Romandakı zaman və məkanın müxtəlif və şərti olmasına münasibət bildirən xalq yazıçısı Anar ilk rəylərdən birini yazmaqla həm də əsərin həqiqi qiymətini verməyə çalışmışdır: "Bu əsər Azərbaycan həyatıyla ictimai həyatımızın həm iki yüz ili, həm əlli-altmış il bundan qabaqkı, həm də bugünkü dövrləriylə bağlıdır. Romanda uzaq və yaxın keçmişimizin, müasir yaşayışımızın, taleyimizin, milli mənəviyyatımızın bir çox mühüm məsələləri qaldırılır" (2).

Məqalə müəllifi burada həm də yazıçını gözlənilən ideoloji hücumlardan qorumağı da yaddan çıxarmayaraq "Qətl günü" yüksək humanist pafosla yazılmış bir əsərdir" qənaətinə gəlirdi. Əslində Y.Səmədoğlunun repressiyaya bu kontekstdə yanaşması yeni olmaqla, romanın süjet xəttini və obrazlarını keçici mövzu və problematika üzərində deyil, daha dərin qatlar üzərində qurduğunu göstərirdi. Tənqidçi Vaqif Yusifli də romanın əhəmiyyətini xüsusi qeyd edərək yazır: "Y.Səmədoğlu yeni tipli Azərbaycan romanı yaratmışdır. Burada Qərb epik romanına məxsus monumentallıqla Qərb romanlarına xas olan polifonizm vəhdətdir" (3).

Yazıçı burada 30-cu illər repressiyası həqiqətlərini olduğu kimi təsvir etməyə nail olmuşdur. Bu həqiqətlər həm əsərin süjet xəttində və hadisələrdə, həm də Sədi Əfəndi, Zülfüqar, Temir, Salahov, Xəstə, Mark Georgiyeviç, Kərimli, Adil Qəmbəroviç və b. obrazlar kontekstində açılır. Bu obrazlar bir neçəsi 30-cu illər repressiyasının iştirakçıları, bəziləri zərərçəkənlər, bəzisi isə şahidləri olmuşdur. Yazıçı bu obrazlar qalereyası ilə repressiya sunamisinin mahiyyətini, strukturunu və gedişini ustalıqla açmağa nail olur.

Əsərin yazıldığı dövrün adamlarını hələ 30-cu illərinin hadisələrinə bağlayan tellər, alt qatlar çoxdur. O dəhşətli illər arxada qalsa da, onun izləri hələ də qalır. Mahmud əvvəl

fikirləşir ki, yenə də Zülfüqar kişinin "faqqılığı" tutub. Onu müayinə edəndən sonra da qorxmamasını, heç nəynin olmamasını deyir. Ancaq Zülfüqar kişi " — Yox, ay bala, Sarıca oğlu Məhəmməd gəlib dalımca", — deyə bildirir. Sarıca oğlu Məhəmməd o illərdə Peykanlının uryadniki olmuşdu. Hadisələrin sonrakı gedişindən məlum olur ki, 1921-ci ildə Peykanlının uryadniki Sarıca oğlu Məhəmmədi Bakıdan gələn polnumoçinin əmri ilə günahsız yerə öldürmüşdür: "Qan çanağının ətəyində yaxaladım onu... — Zülfüqar kişi gözlərini yumdu, elə bil mürgüyə getdi, amma sözünü kəsmədi, davam elədi. — Fağır məni görən kimi diz üstə çökdü, dedi, ay Zülfüqar, öldürmə məni, çevir məni balalarının başına... Üz-gözünü tük basmışdı, hal adamı kimi qapqaraydı, zalım, baxanda deyirdin, xortdandı, nədi bu?.. Dedim, ay Məhəmməd, Bakıdan polnomoçnu gəlib... Salahov Adil Qəmbəroviç. Sən deyir, camaata çox divan tutmusan, sinfi düşmənsən, indi leşini onun ayaqları altına atamasam, sürgün eliyəcək məni, gedib Sibirin qarında, axtasında çürüyüb öləcəm..." (4, 32). Yazıçının Zülfüqar kişinin ölüm ayağında Sarıca oğlu Məhəmmədi xatırlaması təsadüfi deyil. Ölüm ayağında başa düşür ki, o zaman günah etmiş, öz həyatını qorumaq üçün Sarıca oğlu Məhəmmədi öldürərək "Tovariş Salaxov, budet sdelano!" deyərək bu günahsız adamı öldürmüşdür. O zaman düşünürdü ki, bütün bunlar qismətdir, kimin qismətində nə yazılmışsa, o da olacaqdır. Bəlkə də bu ölümün hesabına o, yerində qalmış, hökumətin adamı olmuşdu. İndi o, Bakının gözündə onların adamı idi. Yazıçı Baba Kahanı bir rəmz olaraq götürür, sirli və kilidli bir yer kimi təsvir edir. Baba Kahadan külək qopanda dünya hökmdardan da, Xacə Ənvər kimilərdən də təmizlənir. Tənqidçi Yaşar Qarayev Sarıca oğlu Məhəmmədlə Zülfüqar kişinin əl-ələ tutub baba Kahaya tərəf getmələrinə rəmzi məna verərək yazır: "Ölərkən isə qatillər də, qurbanlar da teyflərə çevrilir və Kahaya yığılır. Əsrlərin qan yaddaşına həkk olunmaq. yeni-yeni nəsillərin yuxularına girmək üçün burada öz növbəsini gözləyir. Burada artıq onlar keçmişin əxlaq və ibrət fənni kimi, tarixin özünün mənəvi və əxlaqi təcrübəsinin dərsləri kimi yuxulara girir və dünyanın, bəşərin yaddaşını ayıq, oyaq və səfərbər saxlamağa kömək edir" (5, 553).

Zülfüqar kişinin ömrü boyu və ölüm ayağında iyirmi birinci ildə öldürdüyü uryadnik Sarıca oğlu Məhəmmədi "Nahaq... nahaq... öldürdüm Sarıcaoğlu Məhəmmədi", — deyə xatırlaması ictimai hadisələrin insani münasibətlərə gətirdiyi kataklizmləri üzə çıxarır. Bu ölümü Salahovun əmri əsasında yerinə yetirmişdir. Lakin bu peşimançılıq ömrü boyu onu izləmiş, ölüm ayağında isə peşimanmçılıq hissi keçirmişdir. Buradan da görünür ki, Zülfüqar kişi onu istəməyərək, sadəcə əmri yerinə yetirərək öldürmüşdür. Əgər onu öldürməsəydi özünün ailəsi və özü ölümə məhkum ediləcək, yaxud sürgünlərdə çürüyəcəkdi.

Adil Qəmbəroviç Salahov obrazı bütünlüklə 30-cu illər cəmiyyətini özündə ehtiva edən, sistemin, ictimai quruluşun təmsilçisi kimi çıxış edir. Yazıçı bu obrazı tarixi təfərrüatlarla son dərəcə psixoloji detallarla göstərir. O, dəhşətli dərəcədə maskalandığından və əlindəki hakimiyyətin güclülüyündən onu tanımaq, ifşa etmək o qədər də asan olmur. O, həm də kütbeyinliyin, zülmün, zorakılığın obrazı olaraq mənalanır. Təsadüfi deyil ki, Kirlikir cəmiyyətdə məhz bu cür ünsürlərə qarşı çıxış edir, şər qüvvələrə qarşı amansızdır, ifşaçıdır, heç nədən çəkinməyərək bu cür maskaların açılmasına çalışır: “Hərif gəlir, odu ha…Salahov Adil Qəmbəroviç! Bu mənim adamımdı. Necə deyərlər, bir növ mənim şakərimdi…Ömründə arvad üzü görməyib, anadangəlmə kişiliyi yoxdu zarazanın” (4, 66). Şairin dilini kəsərək edam edən hökmdar kimi Adil Salahovun da kişiliyi yoxdu. Bu isə o deməkdir ki, zülmün, haqsızlığın varisi olmadığı kimi, sonu da yoxdur.

Əslində yazıçı Kirlikir obrazı ilə cəmiyyət həyatına, baş verən hadisələrə kənardan baxış ifadə edir. Adil Salahov heç özü də olduğu kimi deyil, başqalarının əlində bir alət olaraq

təsvir edilir. Zülmün, zorakılığın təmsilçisi salahovun qarşısında Kirlikirin özünü aparması sarkazmdır və mövcud quruluşu, düşüncəni reallıqla təsvir edir: "Kirlikir dördayaq olub, pişik siçanın üstünə gedən kimi tarım dartılıb, yastıyastı çəlikli kişiyə sarı yönəldi. Düz onun qabağına gəlib, birdən-birə arxa ayaqları üstə qalxaraq cır səslə bağırdı:

— Budet sdelano, tovariş Salaxov!" (4, 66)

Romanda Salahov adına bir də Sədi Əfəndinin gündəliyində rast gəlirik. Gündəlikdən görünür ki, 30-cu illərdə Salahov yenə də iş başındadır. Bu dəfə onun qurbanları ziyalılar, yazıçı və şairlərdiir. Sədi Əfəndi özünü onun kabinetinə girəndə nə qədər şax tutmağa çalışsa da, görür kü, heç bir faydası yoxdur. Binanın və kabinetin, eləcə də burada baş verənlərin qorxusu istər-istəməz Sədi Əfəndiyə də təsir edir. O, Sədi Əfəndini kabinetinə dəvət edir, onunla çox yaxşı rəftar edir, onu sanki əzizini görmüş kimi qarşılayır. Ondan üzr istəyir ki, əziyyət verib bura gətirmişdir. O, Sədi Əfəndidən xalqımızın fəxri kimi danışır, guya onu elə-belə tanışlıq üçün çağırıb: "...o mənim əhvalımı soruşdu, mən onun əhvalından xəbər tutdum, sonra sordum ki, ismi-şərifiniz, dedi ki, Salahov Adil Qəmbəroviç, amma onu da dedi ki, bəs mənə eləcə Adil de, çünki mən sənin kiçiyinəm. Dedim xub, çox gözəl və çox pakizə, mərifət sahibi olan adamlar elə hər babətdən hörmətə və ehtirama layiqdirlər" (4, 111).

Yazıçı burada 30-cu illər repressiyasının istintaq strukturunun mahiyyətini olduğu kimi təsvir etmişdir. Belə ki, bu illərdə hər hansı bir yazıçı, şairi idarəyə dəvət edir, onlardan hər hansı bir yazıçı, şair haqqında müəyyən fikirlər toplayır, sonra da bu fikirləri bir dəlil kimi onun əleyhinə yönəldirdilər. Yəni insanlar heç bir fakt olmadan. kimlərinsə onun haqqında dediyi sözlərə görə ittiham edilir və ona cəza kəsilirdi. Bununla, onları həm də bir-birinə qarşı qoymuş olurdu. Salahov da belə edir. Sanki onu başqa bir məsələ üçün dəvət etmiş kimi göstərsə də, əsas məsələ A.Q. haqqında ondan məlumat almaq idi. Doğrudur, Sədi Əfəndi duyuq düşür, onun haqqında ancaq yaxşı sözlər işlədir. Ancaq Salahov ona irad tutur ki, söhbət A.Q.-nın savadlı olub-olmamasından getmir, söhbət ondan gedir ki, A.Q. ağzını Allah yolunda qoyub orda-burad çərənləyir. Sədi Əfəndi isə, bunun cavabında onların ailəlikcə yaxın olduğunu, ancaq ondan bu cür söhbətləri eşitmədiyini bildirir. Salahov bu cavabdan təəccüblənir. O, elə bilirdi ki, indi Sədi Əfəndi onun haqqında bəzi məlumatlar çatdıracaq. Sədi Əfəndi nəinki buna gedir, hətta A.Q.-nı müdafiə edir. Salahov onun bu cavabına şaqqanaq çəkib gülür. Bu gülüşdə, əslində Sədi Əfəndinin özünün gələcək taleyini müəyyən etdiyinə bir işartı olur. Bundan sonra Salahov bir kağız uzadaraq Sədi Əfəndidən necə demişsə, eləcə də yazmağını xahiş edir.

Əgər Sədi Əfəndi A.Q. haqqında mənfi tonda danışsaydı, yenə də eyni proses baş verəcəkdi. Deməli ki, repressiyanın baş vermə, istinataq strukturunda bu bir priyomdur; əvvəlcə, onu yaxşı qarşlayır, dolayısıyla mətləb üstünə gəlinir, söhbətə tutur, sonra isə dediklərini bir vərəqə olduğu kimi yazdırırdılar. Sonra isə bu yazdıqları kimlərinsə, yaxud elə özünün əleyhinə çevrilirdi. salahova da elə bu lazım idi. A.Q. ilə Sədi Əfəndinin yaxın olmasını sübut etmək ki, bunu da Sədi Əfəndi özü edir. Bunu nəzərdə tutan xəstə olası adam (müəllif) gündəliyin bu yerini oxuyanda deyir: "Ax, ey Sədi Əfəndi! Heç göz görə-görə, qulaq eşidə-eşidə adam özünü tələyə salar?.. Xəstə ah çəkdi, barmaqlarını cütləyib gözlərini ovuşdurdu. Axı, Salahova Sədi Əfəndinin yazdığı o üç-dörd cümlədən savayı heç bir şey lazım deyilmiş, bu, xəstə üçün gün işığı kimi aydın idi. Yəni etiraf elə ki, sən A.Q. ilə uzun illər dostluq eləmisən, tez-tez küsüşmüsünüz, görüşəndə də köhnə dostlar kimi nələr danışıb, bir-birinə nələr demisiniz, bunu sübuta yetirmək asandır" (4, 117). Doğrudan da, hadisələrin sonrakı inkişafı Sədi Əfəndinin repressiyaya məruz qaldığı və onun "Qətl günü" əsərinin itməsi ilə nəticələnir. Onun qızı Səlimə xanım uzun illər onun itmiş bu əsərini axtarır və

nəhayət, tapır.

Yazıçı Salahaov obrazını repressiyanın başında duran, onu həyata keçirən funksionerlərdən biri kimi təsvir edir. Lakin indiki zamanda onu tanıyanlar çox azdır, onun keçmişini unutmuşlar. Onların bəziləri hələ də vəzifədədir. Baba kahanın partladılmasında da onlar mühüm rol oynayır. Baba kaha bir obrazdır, xalqın həmişə ona sığındığı, rəmzi bir obraz. İnsanlar həmişə ona tapınmış, oraya getmişlər. Elə buna görə də indi Baba Kahanı partlatmaq qərara alınmışdır. Baba Kaha bir simvoldur, xalqın tapındığı, inandığı yerdir. Ədəbiyyatşünas Muxtar İmanov Baba Kaha ilə bağlı belə bir doğru qənaətə gəlir: "Baba Kahaya inanış hardasa dünyanı nizama salır; adamlarda bir Baba Kaha xofu yaranır və bu xof onları öz pis əməlləri barədə düşünməyə, əzab çəkməyə vadar edir. Baba Kahadan əsən soyuq külək külək ölümdən xəbər verir. Adamlar hər addımda bu küləyin hənirini duyurlar, hər addımda bu küləyin qorxusu altında yaşayırlar... Zülfüqar kişi yuxuda vaxtilə öldürdüyü uryadniki, hökmdar anasını, tatar Temir arvadını görür" (6, 75).

Salahovu yaxşı tanıyanlardan biri Kirlikirdir. O, Xəstə ilə həyətdə yeyib içəndə dünyanın işlərindən xəbərdar olduğu görünür. Səməndərovun bağırsağında noxud boyda şiş olması, ancaq özünün xəbəri olmadığını bildirəndə Xəstə onun hər şeydən xəbərdar olduğunu bir daha dərk edir. Söhbətin bu yerində sözünü kəsərək susur. Buna səbəb Salahovun gəlməsi olur: "— Kirlikir gözlənilmədən sözünü xırp kəsib qulaqlarını şəklədi, bütün görkəmi dəyişdi, bığları əsim-əsim əsdi, burun pərələrindən təxacı açılmış şampan şüşəsinin fısıltısına bənzər bir fısıltı qopdu. — Səs salma, görüm... Hərif gəlir.

— Hərif kimdi? — Xəstə olası adam pıçıldadı.

Kirlikir qalxıb zibilxananın sınıq-salxaq qapısına sarı yönəldi, içəri düşən işıq zolağından gizlənib, özünü qaranlığa verdi.

— Odu ha... Salahov Adil Qəmbəroviç" (4, 68).

Kirlikir Salahovu görəndə ondan qaçır, əsəbiliklə böyrünü-başını, qarnını qaşıyır, fısıltı ilə dərindən nəfəs alaraq düz onun qabağına gəlir və ayaqları üstə qalxaraq cır səslə "Budet sdelano, tovariş Salaxov", — deyir". Çəlikli kişi (Salahov) onun bu sözündən çox əsəbiləşir "Tfu, zəhrimar! Adə, bu nə siçovulxanadı bu həyət! Başdan ayağa antinasnariyadı. Svoloçi!", — deyə hiddətlənir. Kirlikir, hər dəfə belə edəndə bundan çox ləzzət aldığını Xəstəyə bildirir. Görünür ki, indi Salahoun əlində əvvəlki hakimiyyət yoxdur. İndi zaman dəyişmiş və o ancaq siçovulu söyməkdən başqa bir iş görə bilmir.

Kirlikir Salahovun qarşısında zülmə, zorakılığa kölə itaətinin sarkazmını yaradır və keçmişində Salahovun bu sözləri çox eşitdiyinə bir işarədir. Salahov vaxtilə çox cinayətlər etmişdir və hər dəfə Kirlikir belə dedikcə onun törətdiyi cinayətlər sillə kimi üzünə dəyir. Lakin Salahov tək deyildir, onun ətrafında olan adamlar repressiya torunu toxuyanlar da vardır. Bu obrazlardan Muxtar Kərimli, Akop Mirzəyan repressiya sunamisini həyata keçirənlərdəndir. Sistemin başında durmasalar da, onu icra edənlərdəndir. Onları birləşdirən ictimai quruluşdur, onların hamısı sistemin quludurlar. Sistem isə özündə keçmişini unudanları, simasızları, mənəviyyatsızları, ikiüzlülüləri önə çəkir, onlara arxalanır. Bu obrazlar əsər boyu az görünsə də, onlar haqqında müəyyən söhbətlər gedir. Bu söhbətlərdən aydın olur ki, Muxtar Kərimlilər və Akop Mirzoyanlar repressiyanı hadisələrində mühüm rol oynamışlar.

Muxtar Kərimli obrazına Sədi Əfəndinn gündəliyində, onun qızı Səlimənin münasibətində və romanın digər hissələrində epizodik şəkildə xatırlanır. Bu xatırlanmalardan görünür ki, Səlimə atasının repressiya olunmasında Muxtar Kərimlini günahkar bilir. Hətta aradan bir neçə onillik keçməsinə baxmayaraq, belə güman edir ki, atasının tutulmasında Muxtar

Kərinmlinin rolu böyükdür. Bu fikri Sədi Əfəndinin tapılan romanı və romandakı gündəlik də təsdiq edir. O, yazır: "Yazdığım yazının bir qədər ora-burasına baxdım, on beş-iyirmi səhifə oxudum və vallah, a kişilər, oxuduqlarım yenə xoşuma gəldi. Mənim yazdığım yazı Kərimlinin xoşuna gəlmir, cəhənnəmə gəlsin, gora gəlsin, amma özümün xoşuna gəlir, neynim?! Səni görüm, neynim deyib qalasan, ay Kərimli! Nə tuği-lənət olub və keçib bizim gözəl-göyçək hökumətimizin boğazına?!" (4, 104).

Aydın görünür kİ, yazıçının yazdıqlarına Kərimli düzgün yanaşmır. Həm də yazıçı yaxşı başa düşür ki, Kərimli hökumətin də boğazına keçmişdir. Gündəliyin başqa bir yerindən aydın olur ki, Kərimli iclas çağırmış və onun da orada "vacibdən-vacib" olmağını istəmişdir. Arvadı xeyli təşvişə düşsə də, ondan narahat olmamasını tapşırır. Yolda Vazgen kişiyə rast gələrkən ondan iclasla bağlı bir şeylər öyrənmək istəsə də, bir şeyə nail ola bilmir. Nəhayət, iclas balayır, Kərimli qoltuğunda çoxlu kağızlar kürsüyə çıxır və xeyli danışır. Danışdığından belə çıxır ki, traxoma xəstəliyi təkcə Allahın bəlası deyil, həm də sinfi düşmənlərin bəd əməllərindən qaynaqlanır. Hamı onun bu çıxışını gurultulu alqışlarla qarşılayır. Muxtar Kərimli isə elə bu zaman üzünü zala tutaraq burada Sədi əfəndinin olduğunu və onun bu barədə fikrini öyrənməklə bağlı ona söz verir. Sədi Əfəndi səhnəyə çıxanda heç kim əl çalmır. Sədi Əfəndi söyləyir ki, burada yaxşı çıxışlar oldu, ancaq yaxşı olardı ki, pul yığıb kommunxoza verək, həkimlərin də maaşını artıraq ki, traxoma ilə yaxşı mübarizə apara bilsinlər.

Kərimli onun bu çıxışına dərhal siyasi rəng verir, onu siyasi bisavadlıqda günahlandırır.

Akop Mirzoyan obrazı da əsərə təsadüfi daxil edilməmişdir. Çünki 30-cu illər repressiyasını həyata keçirənlər arasında ermənilər üstünlük təşkil etmişlər. Z.Bünyadov "Qırmızı terror" kitabında ermənilərin repressiyadakı payı haqqında yazır: "...hakimiyyətdə oturmuş dövlət quldur dəstəsi görünməmiş vəhşiliklə Sumbatovun, Borşovun, Gerasimovun, Sinmanın, Şerin, Qriqoryanın, Markaryanın, Qalstyanın, Ohanesyanın, Avanesyanın və onları Atakişiyev kimi nökərlərinin və qeyrilərnin əlilə təxminən 7080 min Azərbaycan ziyalı nümayəndəsi-alim, yazıçı, artist, müəllim, gənc, din xadimi, sovet və partiya idarəsi əməkdaşı, hərbçi, bir sözlə, bütün düşünən beyinlər, qeyri-adi təfəkkür sahibləri bir ucdan məhv edildilər" (9, 4).

Romanda Yazıçılar İttifaqının asılqanında işləyən Vazgenlə yanaşı, Sədi Əfəndi ilə bir həyərdə yaşayan Akop Mirzoyan obrazı da verilir. Sədi Əfəndi gündəliyinin bir yerində onun haqqında yazır: "Arvada necə deyəydim ki, bizim həyətdə yaşayan Akop Mirzəyan bu gün səhər mən Muxtar Kərimlinin yanına gedəndə qabağımı kəsib və möhkəm çaxır içib keflendiyi səbəbdən mənə dedi ki, Mirzə, tı julik!.. Dedim, ay köpəyoğlu niyə julik deyirsən, mənim sənə nə pisliyim keçib? Üzümə baxıb qoyun kimi dişlərini ağartdı ki, sən elə juliksən ki, durubsan..." (4, 103-104).

"Qətl günü" romanında 30-cu illərin cəmiyyəti, mühiti bütün reallığı ilə təsvir olunur. Bu cəmiyyətdə insan həmişə qorxu içində yaşayır, ölümünü göz önünə gətirir. Şairin də təsvir obyekti insandır, onun arzu və istəkləridir. Əslində hər hansı bir şair insanı sevməli, ondan xeyiri görməli, duymalıdır. Lakin şair də bu mühitdə ölümə, qana susadığından məmləkətin başqa bir şairinin edam olunmasını istəyir. Belə ki, hökmdar qalanı alır və məmləkətin ən məşhur şairinin başının xalqın gözü qarşısında kəsilməsinə fərman verir və bununla da xalq içərisində qorxu hissini dərinləşdirmək məqsədini güdür. Vəzir üzünü hökmdara tutaraq deyir:

— Məsləhətdir şairi camaatın gözü qabağında edam etməyək.

— Niyə? Səbəbi? Bu nə hoqqadır?

— Məmləkətin camaatı şairi çox sevir, ulu hökmdr, — söylədi, yerləri yaradan Allahın

ədalətli rəsulu, qorxuruq artıq-əskik danışan ola" (4, 146).

Yüz minlərlə insanın məhvinə fərman verən hökmdar şairin dilinin kəsilməsinə, yaxud məhv edilməsinə zərrə qədər də təsirlənmir. Məmləkətində çox sevilən şairin xalq içində başının vurulmasından zərrə qədər də qorxmur. Əksinə, ona bu sözləri söyləyənlərə hirslənərək deyir: "— Rədd olun, dağılışın! — deyib çığırdı. — Şairin edamı gün batanda, dediyim yerdə və camaatın gözü qabağında olacaq. Başını da qızıl teştin içində məmləkətin o biri dılğır şairlərinə verəcəyik. Rədd olun!.." (4, 147).

Lakin bundan sonra uzun müddət qan tökən, baş kəsən, hökmlər, fərmanlar verən hökmdarın yazıq bir məxluqa çevrilməsinin şahidi oluruq. O da Zülfüqar kimi etdiyi hərəkətdən peşiman olur. Onun gözlərinin beş yaşlı uşağın gözlərinə bənzəməsi də təsadüfi deyil, insan kimliyindən asılı olmayaraq insandır və o, son anda — ölüm ayağında ilkinliyinə qayıdır. Hökmdar da belə olur; insanlara qan udduran yırtıcı körpə uşaq kimi Xacə Ənvərdən kömək diləyir, ona sığınır. Oxucunun roman boyu hökmdara bəslədiyi nifrət yazıçının təsvir məharəti nəticəsində yavaş-yavaş dağılıb gedir. Oxucu hökmdarın bu cür ölümünə acıyır. Ümumiyyətlə, romanda çoxlu ölüm hadisələri baş verir. Sanki bununla yazıçı 30-cu illər repressiyasının qorxunc sifətini üzə çıxarmağa çalışmışdır.

Ədəbiyyatşünas Bədirxan Əhmədov yazır: "Y.Səmədoğlunun romanda təsvir etdiyi ölümlərin hər biri adi ölüm olmayıb (Allahın verdiyi canı geri alması) sosial, psixoloji, fəlsəfi yüklü ölümlərdir. Bu adamların heç biri öz əcəli ilə ölmürlər. Yazıçı adi ölümdən yox, qətl olunanlardan, yaxud qatillərin törətdiyi faciəvi ölümlərdən danıçır" (8, 464). Altmışıncların tədqiqatçılarından olan M.İmanov da romandakı ölüm hadisələrinə diqqət çəkərək belə bir doğru qənaətə gəlir: "Diqqət yetirildikdə aydın olur ki, romanda hətta ölüm kimi əbədi və əzəli bir amil belə sosial şəraitlə əlaqələndirilir, qəhrəmanlarının ölüm səhnələrinin təsviri eybəcər mühitə etirazın bir forması kimi mənalandırılır" (9, 98).

Romanda təsvir olunan qorxu zamanından və məkanından asılı olmayaraq sosial mühitlə qırılmaz əlaqədə götürülür, uzaq zamanlarda yaşayan hadisələr, yaxud qəhrəmanlar arasında əlaqə olduğu kimi, ölümlər və qorxular arasında da oxşarlıqlar vardır. Yazıçı bununla zamanların, məkanların özünün sosial tarixi şəraitində yaxınlıq və oxşarlıq görür. Ölümlərin, qorxuların bir-birini tamamlaması, bir-birilərinə yaxın və oxşar şəkildə təsvir olunması müəyyən fəlsəfi məntiqə əsaslanır.

**Məqalənin aktuallığı.** Y.Səmədoğlunun "Qətl günü" romanı repressiya gerçəkliklərini bədii şəkildə bütün təfərrüatları ilə çatdıran ən yaxşı əsərlərdən biridir. Özü də bu roman repressiya gerçəkliklərinə münasibət bildirən ilk Azərbaycan romanıdır. Doğrudur, 60-cı illərin əvvəllərində M.Hüseynin "Yeraltı çaylar dənizə axır" romanında repressiya mövzusu da vardır. Lakin aydın məsələdir ki, 60-cı illərdə bu mövzuya ilk münasibət bildirilirdi. Bu nədənlə də repressiya hadisələri bütün gerçəklikləri, psixoloji, tarixi, mənəvi-əxlaqi problemlərilə təsvir oluna bilməzdi.

**Məqalənin elmi yeniliyi.** "Qətl günü" romanı isə ötən əsrin 80-ci illərinin əvvəllərində çap olundu. Baxmayaraq ki, bu dövrdə artıq rus ədəbi prosesində bu hadisələrə həsr edilmiş həm araşdırmalar, həm də bədii əsərlər mövcud idi. Lakin buna baxmayaraq, Azərbaycan reallığında repressiya gerçəkliklərinə həsr edilmiş əsəri dərc etdirmək çətin idi. Görkəmli yazıçılar İ.Şıxlının, Anarın bu əsərin dərci üçün çalışdıqları və nəhayət, buna nail oldiqları ilə bağlı məlumatlar da dolaşırdı. O da məlum idi ki, belə bir əsərin dərc edilməsi zəruri olduğu kimi, ədəbi mühiti də məşğul edəcəkdi. Bu mənada "Qətl günü" romanının "Azərbaycan" (1983 №4, 5) jurnalında dərc olunması ədəbi prosesə bir canlılıq gətirdi. Repressiya illərinin canlı şahidləri və iştirakçılarının hələ də bəzilərinin həyatda olduğunu və romanda bir çox

həqiqətlərin ifadə olunduğunu nəzərə almış olsaq, onda romanın doğurduğu ajiotajı başa düşmək olardı. Repressiyanın baş verdiyi vaxtdan onun haqqında gizli şəkildə uzun illər boyu danışılan gerçəkliklər, yaxud əfsanələr indi bədii əsərdə təqdim edilirdi.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat


1. Səmədoğlu Y. Qətl günü //Azərbaycan, 1983, N4; 5
2. Anar. Yazıçının ilk romanı. "Ədəbiyyat və incəsənət" qəz., 1984, 27 iyul.
3. V.Yusifli.Görkəmli yazıçı, ictimai xadim."525-ci qəzet", 2010, 11 dekabr.
4. Səmədoğlu Y. Qətl günü. Bakı: Yazıçı, 1988.
5. Qarayev Y. Seçilmiş əsərləri. 5 cilddə, III c. Bakı: Elm, 2015.
6. Ədəbiyyatda şəxsiyyət konsepsiyası. Bakı: Elm, 2000.
7. Bünyadov Z. Qırmızı terror. Bakı: Azərnəşr, 1993.
8. Əhmədov B. XX yüzil Azərbaycan ədəbiyyatı; mərhələlər, istiqamətlər, problemlər. Bakı: Elm və təhsil, 2015.
9. İmanov M. Müasir Azərbaycan nəsrində psixologizm. Bakı: Elm, 1991.


**Ш. Теймурова**

## Реальности в период репрессий, описанные в романе «Судный день», написанном Ю.Самадоглу

## Резьюме

В статье в романе «День убийства» Ю.Самадоглу анализируются факты репрессий. Показано, что сущность репрессий 30-х годов лучше всего описана в этом романе в азербайджанской прозе. Репрессии в романе содержат все факты, психологические, исторические, моральные и этические проблемы. В романе «День бури» писатель уделял больше внимания символам, чем обобщению, и символам. В результате, поскольку писатель правильно интерпретировал сущность эпохи, он также создал обобщенный образ практикующих репрессий. В дополнение к изображениям, таким как Адил Салахов, Мухтар Керимли, образ Сади Эфенди, против злых сил, также был создан.В статье также содержится позиция литературной критики о романе.

**Sh. Teymurova**

## Realities during repression period described by novel "The Day of Judgment" written by Y.Samadoglu

## Summary

This article explores the realities perpetrated during repression period as described by novel "The Day of Judgment" written by Y.Samadoglu. It also indicates this novel to be the best thoroughly researched work in the Azerbaijani prose to describe the origin of repression perpetrated in the 30$^{th}$ years. Repressive actions in the novel reflect all the real facts, physiological, historical, moral- ethical issues. In the novel The Day of Judgment", the writer basically focused on summarizing of facts and symbols, avoiding novel to be filled with documentary facts only. As a result, the writer managed to create the generalized picture of the tyrants as well as precisely

interpreting the essence of that repression period. Alongside with the images of Adid Salahov, Mukhtar Kerimli, the image of Sadi Efendi who was standing against the evil forces was also created in the mentioned novel. The article also refers to literary critical views associated with the novel.

**Redaksiyaya daxil olub:** 19.11.2018